# Yubiley tədbirləri

*Gəncə Şəhər Mədəniyyət və Turizm İdarəsi ona həvalə olunan işin öhdəsindən bir qayda olaraq həmişə bacarıqla gəlir. Bu mənada o hətta çox vaxt həmkarlarına nümunə də göstərilir. Şəhərdə keçirilən mədəni-kütləvi tədbirlərə əvvəlcədən lazımi hazırlıq görüldüyündən onlar həmişə maraqlı olur, zövqləri oxşayır, adamlar uzun müddət həmin xoş anların təsiri ilə yaşayırlar.*

*Son vaxtlar Gəncədə keçirilən yubiley tədbirləri buna əyani sübutdur.*

## "Səməd Vurğun - 100"

Gəncə Dövlət Dram Teatrının səhnəsi yubiley gecəsi ruhuna uyğun olaraq son dərəcə yüksək zövqlə bəzədilmişdir. Pərdə üzərinə «Səməd Vurğun-100» sözləri vurulmuşdur.

Ön söz Gəncə Şəhər Mədəniyyət və Turizm İdarəsinin rəisi Mina xanım Məlikovaya verilir. Azərbaycan Yazıçılar Birliyi Gəncəbasar Bölməsinin sədri sair Məmməd Alim yubilyarın həyat və yaradıcılığı haqqında ətraflı çıxış edir.

Bundan sonra musiqili proqram başlayır. «Göy göl» Dövlət Mahnı və Rəqs Ansamblının üzvləri Sənəm Hüseynova «Azərbaycan», Samir Məmmədov «Yadıma düşdü», Rəhilə Əhmədova «Tərlanım», Yasəmən Abbasova «Dağlar», Elçin Dadaşov «Muğana ceyran», Aşıq İlqar Nəcəfov «Xəbər al məni» ifa edirlər. Gəncə Dövlət Poeziya Teatrının aktrisası Xanirə İsgəndərova «Şair nə tez qocaldın sən» və aktyoru Əlican Əzizov «Mən tələsmirəm» şerlərini oxuyurlar. «Vaqif» dramından göstərilən bir parça da ifa olunan mahnı və şerlər tək könülləri oxşayır, tamaşaçıların gurultulu alqışlarını qazanır…





## "Süleyman Rüstəm - 100"

Xalq şairi Süleyman Rüstəmin yubiley gecəsi gözlənildiyindən daha təsirli alınır. Yubilyarın həyat və yaradıcılığından ətraflı söhbət açılır.

Şair M. Allimin çıxışından sonra musiqi proqramı elan olunur. Gecədə Süleyman Rüstəmin «İlk məhəbbət», «Vermərəm», «Təbrizim», «Ana və poçtalyon» şerləri, eləcə də şairin sözlərinə yazılmış «Qurban adına», «Axtararsınız», «Sevgilim», «Yandım elə yandım», «Bəs nə deyim» və s. mahnılar səsləndirilir. Daha sonra «Gəldi-gedər» komediyasından bir parça ifa edilir.

...Süleyman Əlabbas oğlu Rüstəmzadə 1906-cı ildə Bakıda dəmirçi ailəsində doğulmuşdur. Şair uşaqlıq illərini atasının dəmirçi dükanında keçirmiş və burada işləmişdir.

Bu həyat onun yaradıcılığında silinməz izlər buraxmışdır.

O, hər bir çətinliyə dözüb, məktəbə davam etmiş və yazıçı Süleyman Sani Axundovun müdir olduğu məktəbdə oxumuşdur.

Süleyman Rüstəm 1930-cu ildə Moskva Dövlət Universitetində oxumuşdur. Süleyman Rüstəmin hələ orta məktəbdə oxuduğu zaman yazdığı «Çimnaz xanım yuxudadır» adlı bir pərdəli pyesi o zaman klublarda və «Tənqid-təbliğ» teatrında oynanılmışdır.

1925-ci ildə şair «Gənc işçi» qəzeti redaksiyasında əməkdaşlıq etmişdir. İki il sonra ilk şerlərini «Ələmdən nəşəyə» (1927) adlı kitabçada çap etdirmiş, «Qızıl Qələmlər İttifaqı»nın Azərbaycan Proletar Yazıçılar Cəmiyyətinin məsul katibi vəzifəsində çalışmışdır. Onun şerləri rus, ukrayna, gürcü, türkmən, özbək və s. dillərə tərcümə edilmişdir. Şair özü rus, gürcü ədəbiyyatının görkəmli nümayəndələrinin ayrı-ayrı şerlərini, Nizaminin «Sirlər xəzinəsi» adlı məşhur əsərini Azərbaycan dilinə tərcümə etmişdir.

Süleyman Rüstəmin ilk şerlər məcmuəsi olan «Ələmdən nəşəyə» adlı kitabında proletar inqilabının qələbələri, sosializm quruculuğunun nailiyyətləri tərənnüm edilmişdir.

Gənc yaşlarında Lenin komsomolu sıralarında böyüyən, komsomol mətbuatında müntəzəm surətdə öz şerlərini çap etdirən Süleyman Rüstəmin yaradıcılığında komsomol mövzusu mühüm yer tutmuşdur. Onun «Qolsuz qəhrəman», «Partizan



Əli», «Çapayev» adlı şerləri bu mövzudadır.

Şairin lirikasında sosializm quruculuğundan bəhs edən «Gecənin romantikası», «Bakı», «Xəzər sahilində», «Qara Qumun ağ günləri» şerləri vardır.



1933-cü ildə yazılan «Yaxşı yoldaş» poemasında Mil düzündə – pambıq cəbhəsində çalışan adamların fədakar əməyindən bəhs edilir.

Süleyman Rüstəmin Böyük Vətən Müharibəsindən bəhs edən «Qəhrəmanın vəsiyyəti», «Qafqaz ordusu», «Ana», «416», «Cəbhədən məktub», «Səliməyə məktub», «Vətən oğlu», «Gün o gün olsun ki», «İldırım» adlı şerləri müharibə mövzusunda yazılan ən yaxşı nümunələrdir.

«Ana və poçtalyon» şerində isə ana qəlbinin saflığı, böyüklüyü, incəliyi və əzəməti tərənnüm edilmişdir.

Süleyman Rüstəmin «Təbrizim» şeri Cənubi Azərbaycan mövzusunda yazılmış ən yaxşı şerlərdəndir.

Şairin dram əsərləri içərisində «Çimnaz xanım yuxudadır», «Yanğın», «Qana qan», «Qaçaq Nəbi» pyesləri vaxtilə teatrların repertuarlarında mühüm yer tutmuşdur.



O, Azərbaycan SSR Ali Sovetinin deputatı olmuş, Lenin ordeni, 2 dəfə Qırmızı Əmək Bayrağı ordeni və medallarla təltif olunmuşdur. Ona əməkdar İncəsənət Xadimi adı verilmişdir.

Süleyman Rüstəm 1989-cu ildə vəfat etmişdir.

## "Qənbər Hüseynli - 90"

Mübaliğəsiz demək olar ki, bu yubiley respublikanın digər bölgələrinə nisbətən daha yaxşı təşkil olunmuş, daha təsirli və yaddaqalan şəkildə keçirilmişdir.

Aparıcılar növbə ilə bəstəkarın ömür kitabını vərəqləyirlər: Qəmbər Məşədi Muxtar oğlu Hüseynli 16 aprel 1916-cı ildə Gəncədə anadan olmuşdur. O, 1925-ci ildə Gəncədəki 1 saylı məktəbdə oxumağa başlamış, 1929-cu ildə Gəncə pedaqoji texnikumuna, eyni zamanda şəhər orta ixtisas musiqi məktəbinin tar şöbəsinə daxil olmuşdur. 1934-cü ildə Azərbaycan Dövlət Musiqi texnikumunun violensel sinfində, 1951-ci ildə A.Zeynallı adına Bakı orta ixtisas musiqi məktəbinin bəstəkarlıq sinfində təhsil almışdır. O, bir çox lirik mahnıların, romansların, fortepian üçün variyasiyaların , eyni zamanda bir sıra uşaq mahnılarının müəllifidir. Bəstəkar «Tellər oynasın», «Tel nazik», «İlk məhəbbət», «Ay işığında», «Gülə-gülə», «Düşər yadıma»,




Qənbər
Məşədi Muxtar oğlu Hüseynli
Bəstəkar
Əməkdar İncəsənət Xadimi

«Sənsən», «Gecələr uzanaydı» kimi lirik mahnıların, «Çeşmə başında», «Gəraylı», «Ceyran», «Yar yanında günahkaram», «Xoş gəldin», «Maral», «Qadan alım» aşıq mahnılarının, «Uşaq və buz», «Məstan pişik», «Yaz», «Tapmaca» və s. uşaq mahnılarının müəllifidir. Onun «Cücələrim» uşaq mahnısı uzun illərdir ki, bütün dünyanı dolaşır…

Sonra bədii hissə başlayır. Gəncə Dövlət Filarmoniyası xalq çalğı alətləri orkestri, Q.Hüseynli adına musiqi texnikumu, Gəncə Dövlət Kamera Orkestri 5 saylı uşaq musiqi məktəbi, «Göy göl» Dövlət Mahnı və Rəqs Ansamblı, «Gülşən» uşaq xoreoqrafiq rəqs ansamblı, uşaq yaradıcılıq mərkəzi və Gəncə Humanitar Kollecinin ifasında Qəmbər Hüseynlinin mahnıları səsləndirilir.

**E.HƏSƏNQIZI**